# Sərhədçilər 20 Yanvar faciəsinin növbəti ildönümünü andılar

Yanvarın 19-da Dövlət Sərhəd Xidməti Aparatında 20 Yanvar faciəsinin 26-cı ildönümü ilə bağlı anım mərasimi keçirildi. Öncə şəhidlərin unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad edildi və faciənin ildönümü münasibətilə hazırlanmış sərgi nümayiş olundu.

Anım mərasimində iştirak edən AMEA-nın Tarix İnstitutunun direktor müavini, tarix üzrə fəlsəfə doktoru, professor Cəbi Bəhrəmov xalqımızın tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı ilin 20 Yanvar hadisələri barədə ətraflı məlumat verdi. Bildirildi ki, SSRİ rəhbərliyinin göstərişi ilə 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə törədilmiş dəhşətli cinayət hadisəsi Azərbaycan xalqının müstəqillik uğrunda mübarizə əzmini qıra bilmədi və həmin tarixi gecədə xalq yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini, azadlıq uğrunda mübarizəsini bütün dünyaya bir daha bəyan etdi.

Tədbirdə çıxış edənlər qanlı faciədən dərhal sonra ulu öndər Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində təcavüzə cəsarətlə etiraz bildirməsini, qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham etməsini xüsusi vurğuladılar. Qeyd olundu ki, 20 Yanvar hadisələrinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət yalnız ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra verilib.

Anım mərasimində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölkəmizin azadlığı, suverenliyi uğrunda həlak olanların xatirəsinə böyük ehtiramın göstərilməsi, şəhidlərin ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi və onlara dövlət qayğısının daim artırılması məqsədilə mühüm qərarların qəbul olunması barədə ətraflı məlumat verildi.

Sonda 20 Yanvara həsr olunmuş sənədli film nümayiş etdirildi.

Qeyd edək ki, faciənin ildönümü ilə bağlı təsdiq olunmuş plana əsasən, Dövlət Sərhəd Xidmətinin bütün hərbi hissə və bölmələrində anım tədbirləri keçirilir, xalqımızın qürur mənbəyinə çevrilən şəhidlərin xatirəsi dərin ehtiram hissi ilə yad edilir.

***Elnur HADİYEV,***
***"Azərbaycan"***